# Nəsib bəy Yusifbəyli və Azərbaycan istiqlaliyyəti

## (140 illiyinə həsr olunur)



Ceyhun Nəbi

araşdırmaçı yazar

(əvvəli ötən sayımızda)

***Partiyanın qurulması mərhələsində insanlar partiya haqqında heçdə xoş fikirdə deyildilər. Yeni proqram, yeni prinsiplər, yeni baxışlar və heç şübhəsiz ki, bu mühafizəkar kəsimi narahat etmiyə bilməzdi. Bu səbəbdən gözdən salmağa, ləkələməyə cəhd edirdilər. Nəsib bəy isə məharətlə onların yalançı və saxta təbliğatlarına cavab verərək, əsl həqiqəti insanlara çatdırırdı.***

Nəsib bəy Yusifbəylinin qurucu rəhbəri olduğu Türk Ədəmi Mərkəziyyət Partiyasının proqramı çox mütərəqqi, yenilikçi və Azərbaycanın azadlığı yolunda mücadiləyə qədəm qoymuş siyasi qüvvələrə istiqamətverici mahiyyətə malik idi. Partiyanın proqramı 19, 20, 24 may tarixli "Kaspi" qəzetində dərc olunmuşdu. Proqramda deyilirdi ki, "Türk ədəmi-mərkəziyyət fırqəsi" demokratik partiya kimi zəhmətkeş xalq kütlələrinə arxalanır və Rusiyanın islama etiqad edən bütün türk zəhmətkeş kütlələrinin iqtisadi-sinfi və milli-mədəni mənafelərini müdafiə etməyə çalışır. Partiya dövlətin federativ əsaslarla yenidən qurulması üçün "Dövlət quruluşu" adlı birinci bölmədə 9 tələb irəli sürürdü. Bütün türk xalqlarına, o cümlədən Azərbaycan, Türküstan, Qırğızıstan və Başqırdıstana ərazi muxtariyyəti verilməsi və beynəlxalq sülhün saxlanması üçün daimi qoşunun xalq milisi ilə əvəz olunması tələb edilirdi. "Ümummilli məsələ" adlı ikinci bölmədə Rusiya türklərinin mədəni-milli ittifaqının yaradılması, onun forma, tərkib və funksiyasının müəyyən edilməsi üçün qurultay çağırılması nəzərdə tutulurdu. "Dini məsələlər" adlı üçüncü bölmədə Rusiyanın bütün müsəlmanlarının müftinin başçılığı altında birləşdirilməsi fikri irəli sürülürdü. Dördüncü bölmə muxtar qurum vətəndaşlarının cinsi, milli mənsubiyyəti və dini etiqadından asılı olmayaraq, bərabər hüquqlara malik olmasını nəzərdə tuturdu. Proqram maliyyə və iqtisadi siyasət sahəsində mütərəqqi vergi sistemini məqbul hesab edirdi. "Aqrar məsələ" bölməsində partiya dövlət mülkiyyətində və xüsusi mülkiyyətdə olan bütün torpaq sahələrinin, əvəzi ödənilmək şərtilə, müsadirə edilib torpaq fondu yaradılmasını nəzərdə tuturdu. Yeddinci bölmə "Fəhlə məsələsi" adlanır. Burada fəhlə qanunvericiliyinin yayılması və qanunun icrası üzərində fəhlə nəzarətinin qoyulması, 8 saatlıq əmək günü, qocalığa və iş qabiliyyətini itirməyə görə dövlət sığortası və s. öz əksini tapmışdı. "Məhkəmə icrası" bölməsi məhkəmənin hər cür təsirdən və təzyiqdən azad olmasını nəzərdə tuturdu. "Məktəb məsələsi" adlı doqquzuncu bölmədə xalq maarifinin demokratik əsasda təşkili və azad tədrisi planlaşdırırdı. Təhsil ibtidaidən aliyə birbaşa əlaqəli sürətdə qurulmalı idi. İbtidai və orta məktəblərdə, türk və rus dilləri məcburi olmaq şərtilə, çoxluğun dili, ali məktəblərdə ümumi türk dili tədris olunmalı idi(8, 414-415).

Zəngin partiya proqramı Azərbaycanın istiqlaliyyətinin əldə edilməsi üçün çalışanlara yön verirdi. Partiyanın proqramının hazırlanmasında heç şübhəsiz Nəsib bəy kimi hüquqşunas olan, keçmiş Duma üzvülərindən Xəlil bəy Xasməmmədlinin, Şəfi bəy Rüstəmbəylinin, həkim Həsən bəy Ağayevin və digərlərinin xüsusi rolu olmuşdu.

***Məhəmməd Əmin Rəsulzadə Nəsib bəy Yusifbəyli ilə bağlı İstanbulda Odlu Yurd jurnalıda 1929-cu il 27 aprel tarixli 3-cü sayda yazmış olduğu xatirə məqaləsində qeyd edir ki, Nəsib bəy Azərbaycan istiqlal hərakatının ən müşgül zamanlarında istiqlalçılıq tezini, hər cür tərəddütlərə rəğmən, bütün səmimiyyəti ilə müdafiə edən milliyyətçi zümrənin daima səmimi və imanlı arkamından olmuşdur(9, 111-112). Həmçinin qeyd edir ki, Azərbaycan fikrini siyasi tələb maddəsi şəklində formulə etmək mərhum Nəsib bəyindir(9, 110).***

15-20 aprel 1917-ci ildə Bakıda Ümumqafqaz Müsəlmanlarının 1-ci Qurultayı keçirilib. Nəsib bəy Yusifbəylinin rəhbərliyi altında Gəncədən olan yenilikci siyasətçilərin fəallığı bu toplantının siyasi ab-havasını müəyyənləşdirib. "Azərbaycan ideyasını siyasi bir tələb" kimi aydınlaşdıran konkret proqramlı Ədəmi-Mərkəziyyət Firqəsi öz məramına özəlliklə müsavatçılar arasında çoxlu tərəfdar toplayıb.

Nəsib bəy Yusifbəyli 1-11 may 1917-ci ildə Moskvada keçirilən Ümumrusiya Müsəlmanlarının Qurultayına da qatılıb və partiyanın mövqeyini müdafiə edib. Müsavat Partiyasının sədri Məhəmməd Əmin Rəsulzadə də bu qurultayda federalizm tezisini dəstəkləyib.

Sözügedən qurultayların ikisinə də sədrlik etmiş Əlimərdan bəy Topçubaşovun eyni mövqedən çıxış edən partiyaların birləşdirilməsi tövsiyəsinə əsasən 1917-ci may ayının axırlarında hər iki təşkilatın birləşərək "Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat" adlandırılması qərara alınıb. İki təşkilatın rəsmi surətdə qovuşması iyunun 20-də birgə Mərkəzi Komitənin yaradılması ilə başa çatıb. Həmin Mərkəzi Komitəyə Ədəmi-Mərkəziyyətdən Nəsib bəy Yusifbəyli, Şəfi bəy Rüstəmbəyli, Həsən bəy Ağazadə (Ağayev) və Mirzə Məhəmməd Axundov, Müsavatdan isə Məhəmmədəmin Rəsulzadə, Məhəmmədhəsən Hacınski, Mustafa ağa Vəkilov, Xudadad bəy Rəfibəyov daxil olublar(10, 283).

Nəsib bəy Yusifbəylinin Gəncə Milli Komitəsindəki fəaliyyəti Azərbaycanın istiqlalı yolunda çox önəmli bir mərhələdir. Həmin dönəmdə aparılan təşkilatlanma işi, rusların 1918-ci ilin yanvar ayının əvvələrində Şəmkir stansiyasında tərksilah edilməsi, Osmanlı ordusunun Azərbaycana dəvət edilməsi istiqamətində göstərilən çabalar çox əhəmiyyətli hadisələrdir. Həmin hadisələrin birbaşa iştirakçıları olmuş Nağı bəy Şeyxzamanlı(11) və Hüsaməddin Tuğacın(7, 179-200) ayrı-ayrılıqda yazmış olduqları xatirə kitabları əsas mənbələr sırasındadır.

***Bütünlükdə Nəsib bəy Yusifbəylinin fəaliyyətinin əsasında Azərbaycanın istiqlalı məsələsi dayanırdı. İmkan yarandıqca istiqlal fikri dahada qüvvətlənir və onun əldə edilməsi üçün bütün imkanlar səfərbər edilirdi. 1918-ci ilin may ayının sonlarında Azərbaycanın İstiqlaliyyətinin gerçəkləşməsi üçün uyğun zaman yetişdi. May ayının 28-də Tiflisdə Azərbaycan istiqlalı elan edildi. Azərbaycan İstiqlaliyyət bəyannaməsinin üzərində 8 imzadan biri Nəsib bəy Yusifbəyliyə məxsusdur. Nəsib bəy imza atmaqla yanaşı bütün var gücü ilə dövlətin formalaşması üçün nə lazım idisə onu icra etməyə başladı. Fətəli Xan Xoylunun rəhbərlik etdiyi ilk hökümət kabinəsində təhsil naziri vəzifəsini həyata keçirirdi. Keçmişdə təhsil sahəsindəki vəzifələri ən yaxşı şəkildə yerinə yetirən və uğurlu fəaliyyətləri ilə yaddaşlarda qalan Nəsib bəyə Azərbaycan Təhsil naziri vəzifəsi uyğun görülmüşdü.*** Milli hökumətin Tiflisdən Gəncəyə köçdüyü ilk illərdə milli təhsil siyasətinə girişən Nəsib bəy vəzifə sahəsinə daxil olan bütün təhsil və mədəni qurumları bir bütöv şəkilində götürmüş və işlərini sürətləndirmişdir. Azərbaycanda bu zamanlarda mövcud təhsilin vəziyyəti müharibələr və daxili qarışıqlıqların bir nəticəsi olaraq o qədər də ürək açan deyildi. Lakin məktəblərin milliləşdirilməsi müasir sistemə uyğunlaşdırılması və milli ədəbiyyatda istənilən səviyyəyə çatdırılması hökumətin əsas vəzifələri arasında idi. Təhsil naziri Nəsib bəy ilk olaraq xalqın mövcud təhsil vəziyyəti haqqında məlumat əldə etməsi və bu istiqamətdə gəlinəcək nəticəyə görə təhsildə islahat aparılması işinə girişdi. Məqsəd aparılacaq islahat üçün sərf olunacaq vəsaiti yetəri qədər etmək və xalq təhsil standartlarının sürətlə inkişafını təmin etmək idi. Nəsib bəy Təhsil naziri olduğu müddətdə təhsildə milliləşməyi ön planda tutdu. İlk olaraq 1918-ci ilin avqustunda Gəncə, Cavanşir, Zəngəzur, Şuşa kimi bölgələrdəki rus və erməni təhsil işçilərini vəzifəsindən azad edib yerlərinə milli kadrları təyin etdi(3, 220-21).

> **Məhəmməd Əmin Rəsulzadə Nəsib bəy Yusifbəyli ilə bağlı İstanbulda Odlu Yurd jurnalıda 1929-cu il 27 aprel tarixli 3-cü sayda yazmış olduğu xatirə məqaləsində qeyd edir ki, Nəsib bəy Azərbaycan istiqlal hərakatının ən müşgül zamanlarında istiqlalçılıq tezini, hər cür tərəddütlərə rəğmən, bütün səmimiyyəti ilə müdafiə edən milliyyətçi zümrənin daima səmimi və imanlı arkamından olmuşdur(9, 111-112). Həmçinin qeyd edir ki, Azərbaycan fikrini siyasi tələb maddəsi şəklində formulə etmək mərhum Nəsib bəyindir**

1919-cu il 14 aprel tarixində Nəsib bəy Yusifbəyli baş nazir olaraq öz hökümət proqramını elan etdi. Həmin hökümət proqramı Nəsib bəy Yusifbəylinin əsl məqsəd və hədəflərini açıq şəkildə ifadə edirdi. Nəsib bəy parlamentdə öz nitqinə bu sözlərlə başlamışdı:

"Möhtərəm məbuslar! Əmrinizlə təşkil etdiyim hökümət, üzərinə nə qədər ağır və nə qədər böyük bir məsuliyyət almış olduğunu anlayır. Doğrudur, Azərbaycan milləti istiqlaliyyətini elan etdiyi bu az bir zamanda yar və əğyar nəzərində müstəqil olmağa layiq bulunduğunu göstərdiyindən, bu günkü hal və mövqeyimiz iki ay əvvəlkindən daha mətin və daha sağlamdır. Əvət, 10 aydan bəri əmr vaqe olan müstəqil Azərbaycan bu gün düvəli-müəzzəmə tərəfindən dəxil hüsnü-qəbul ərəfəsində bulunduğuna və Azərbaycan türklərinə yaxın bir zamanda dünyanın bilcümlə mədəni millətləri ailəsinə daxil olacağına ümidimiz qəvidir"(6,131).

Həmin nitqin diqqət cəlb edən və hökümətin əsl məqsədlərini açıq şəkildə ifadə edən bu sözlər idi:

"Məbus əfəndilər! Hürriyyəti-kəlam, hürriyyəti-mətbuat, hürriyyəti-ictimai, mədəni və demokratik bir dövlət təşkilinin şəraiti əsliyyəsindədir. Bu xüsusda zənn edirəm hər kəsdən biz irəli getdik. Azərbaycanda görülən bu hürriyyətlər dünyanın heç bir yerində mövcud deyildir. Hökümət, təbii, müqqədəs olan hürriyyətləri mühafizə edəcəkdir. Hər kəs nə yazırsa yazsın, hər kəs nə istəyirsə söyləsin, nərədə ictima edirsə etsin. Yalnız bir məsələ vardır ki, ona əl uzatmağa təhəmmül ediləməz. O da AZƏRBAYCANIN İSTİQLALİYYƏTİ məsələsidir( Ümumi sürəkli alqış!)(6,133).

***Nəsib bəy Yusifbəyli hökümət proqramında qeyd etdiyi kimi Azərbaycan istiqlaliyyətinin qorunması və möykəmləndirilməsi istiqamətində bütün enerji və gücünü səfərbər etmişdi. Daxili sabitliyin təmin edilməsi, təxribatçı ünsürlərin zərərsizləşdirilməsi, həmçinin dövlət müstəqilliyinin dünyada tanıdılması istiqamətində göstərdiyi səylər bununun bariz nümunəsidir.***

***Nəsib bəy Yusifbəyli Baş Nazir olmaqla yanaşı Daxili İşlər naziri vəzifəsini də icra edirdi. Nəsib bəy 1919-cu il aprelin 16-da Daxili İşlər naziri olaraq bəyan etdiyi 63 nömrəli əmrdə bildirirdi:***

(davamı gələn sayımızda)

